İPƏK YOLU, No.1, 2022, səh.70-79

# COVİD-19-un İQTİSADİ TƏSİRLƏRİ VƏ PANDEMİYA İLƏ MÜBARİZƏDƏ İQTİSADİ TƏDBİRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Elçin Salmanov**

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Bakı, Azərbaycan
e-mail: elchinaahm@gmail.com

**Xülasə.** Məqalədə COVID-19 pandemiyasının dünya iqtisadiyyatına təsirləri, meydana gələn problemlər, qarşıda duran vəzifələr və həyata keçirilən tədbirlər araşdırılmışdır.

**Açar sözlər**: COVID-19, dünya iqtisadiyyatı, pandemiyaya qarşı mübarizə, iqtisadi tədbirlər.

**AN ASSESSMENT OF THE ECONOMIC IMPACTS OF COVID-19 AND THE ECONOMIC RESPONSE TO PANDEMIC**

**Elchin Salmanov**
*Azerbaijan Higher Military Academy named after Haydar Aliyev, Baku, Azerbaijan*

**Abstract.** The paper discusses the impact of the COVID-19 pandemic on the global economy, the problems that have arisen, the challenges ahead and the measures taken.
**Keywords:** COVID-19, world economy, pandemic control, economic measures

**ЭКОНОМИЧЕСКИЕ ЭФФЕКТЫ COVID-19 И ОЦЕНКА ЭКОНОМИЧЕСКИХ МЕР, ПРИНЯТЫХ В ПРОЦЕССЕ БОРЬБЫ С ПАНДЕМИЕЙ**

**Эльчин Салманов**
*Азербайджанское высшее военное училище имени Гейдара Алиева, Баку, Азербайджан*

**Аннотация.** В статье рассматривается влияние пандемии COVID-19 на мировую экономику, возникшие проблемы, предстоящие задачи и предпринятые меры.
**Ключевые слова:** COVID-19, мировая эконо-мика, борьба с пандемией, экономические меры.

## 1. Giriş

2019-cu ilin sonlarında bütün dünyada müşahidə olunan və milyonlarla insanın sağlamlığının təhlükədə olduğu Covid-19 pandemiyası hələ də davam etməkdədir. Lakin, dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərinin əksəriyyətində vaksinasiya prosesinin sürətlə artması, xəstələrin sayının getdikcə aşağı düşməsi məhdudiyyətlərinin aradan qalmasına, həyatın normal məcaraya qayıtmasına səbəb olur. Covid-19 web portalının 20.01.2022-ci il tarixinə olan məlumatna görə, dünyada virusa yoluxanların sayı 340.180.097, ölənlərin sayı isə 5.586.082 nəfərdir [16].

Qloballaşma prosesinin əhəmiyyətli nəticələrindən biri, kapitalist istehsal üsulunda yer və zaman baxımından bütün məhdudiyyətlərin aradan qaldırılmasıdır. Yeni istehsal üsulunu ən əsas müəyyən edən xüsusiyyət, bütün dünyada hegemonluq qurmaq üçün lazımi ünsiyyətə, texnologiyaya və bazar şəbəkəsinə sahib olmasıdır [8]. Yüksək işçi hərəkətlilik səviyyəsi, qlobal miqyasda inteqrasiya olunmuş istehsal və geniş istehlak şəbəkəsi, dünyanın bir ucunda - Çinin Uhan şəhərində baş verən bir epidemiyanın bütün dünyaya yayılmasına imkan verdi. Ölkələr əvvəlcə sərhədlərini bağlasalar da, nəqliyyat imkanlarını məhdudlaşdırsalar da,

epidemiyanın yayılmasının qarşısını ala bilmədilər. Bu vəziyyətin əsas səbəbi iqtisadiyyatın qloballaşmasıdır. Nəqliyyat imkanları sayəsində dünyanın istənilən yerinə asanlıqla həyata keçirilə bilən səyahətlər (iş və ya turizm) bir şəkildə məhdudlaşdırıla bilər, ancaq istehsal prosesini məhdudlaşdırmaq və ya dayandırmaq mümkün deyil. Bu baxımdan da sərhədlərin bağlanmasına baxmayaraq, Covid-19 pandemiyası qısa müddətdə demək olar ki, bütün dünyaya təsir etdi.

Məqalənin məqsədi, texnologiya səviyyəsinə, XXI əsrdə dünyada tibbin və iqtisadi gücün inkişafına və alınan iqtisadi tədbirlərə baxmayaraq dünyanı hər cəhətdən mənfi təsir edən Covid-19-un iqtisadi təsirlərini ortaya çıxarmaqdır. Ölkələrin təcrübələrinə əsaslanaraq pandemiya ilə mübarizə çərçivəsində aparılmış tədqiqat iki əsas hissədən ibarətdir. Araşdırmanın birinci hissəsi Covid-19 pandemiya prosesinin dünyadakı iqtisadi təsirlərinə həsr edilmişdir. Covid-19-un digər pandemiyalardan fərqləndiyi məqamlardan biri, yayılma sahəsinin genişliyi və ötürülmə sürətinin yaratdığı iqtisadi və sosial təsirlərin bütün dünyada müşahidə edilməsidir. Covid-19 pandemiya prosesi həm tədarük (istehsal zəncirləri), həm də tələb (istehlak və investisiya xərcləri) baxımından qlobal iqtisadiyyata mənfi təsir göstərdi və iqtisadiyyatları ciddi tənəzzülə sürüklədi [14]. Araşdırmanın ikinci hissəsində dünyada pandemiya ilə mübarizə çərçivəsində alınan iqtisadi tədbirlər qiymətləndirilir. Araşdırma metodu olaraq müqayisəli təhlil, analiz və sintezdən istifadə edilmişdir. Mövzunun gələcəkdə daha geniş formada öyrənilməsi etimallarını nəzərə aldıqda bu məqaləyə bir mənbə olaraq istinad edilə bilər.

## 2. Dünyada pandemiya posesinin iqtisadi təsirləri

Covid-19, digər pandemiyalardan və dünya iqtisadiyyatının son zamanlarda yaşadığı ən ciddi iqtisadi böhranlardan biri olan 2008-ci il qlobal böhranının iqtisadi təsirlərindən fərqli olaraq qiymətləndirilməlidir. Əslində bir-biri ilə müqayisə edilməsinə mane olan bir çox amil var. Bu amillər pandemiyanın bütün dünyada yaşanmasıdır. Pandemiya prosesinə aşağı və ya orta gəlirli ölkələr deyil, ən inkişaf etmiş kapitalist ölkələrinin də cəlb olunması, faiz dərəcələrinin əvvəlkindən daha aşağı səviyyədə olması, dünyanın daha geniş iqtisadi sahələri əhatə etməsi kifayət qədər ciddi problemlərin yaranmasına səbəb olmuşdur [4, s.5]. Əsasən də pandemiyanın ən şiddətli olduğu ilk dövrdə ən çox təsirlənən ölkələrin də dünyanın ən böyük iqtisadiyyatına malik 10 ölkəsi (İran və Hindistan istisna olmaqla) olması diqqət çəkir. Bu ölkələrə ABŞ, Çin, Yaponiya, Almaniya, İngiltərə, Fransa və İtaliya daxildir. Dünya tələb və təklifin (ÜDM) 60% -i, dünya istehsalının 65% -i və dünya istehsal ixracatının 41% -i ən çox hadisənin baş verdiyi bu ölkələr tərəfindən həyata keçirilir [2, s. 2]. Bütün dünyada epidemiya yoluxucu təsirini sürətlə davam etdirərkən, qlobal iqtisadiyyatın əsas aktorları olan və həm təklif, həm də tələb tərəfində müəyyən edən ölkələrin makroiqtisadi göstəricilərinin ölkəyə mənfi təsir göstərəcəyi anlaşılır. Makroiqtisadi göstəricilər və durğunluq iqtisadiyyatının hələ bir neçə ildə davam edəcəyi proqnozlaşdırılır [14]. Buna görə də BVF hesabatında 2021-ci il üzrə də qlobal iqtisadi artım proqnozunu 3,4%-dək endirib. Bu, əvvəl proqnozlaşdırılan

səviyyədən 0,2 faiz bəndi azdır. Qeyd olunur ki, proqnozda dəyişikliklərə səbəb əsasən Hindistan üzrə daha aşağı iqtisadi proqnozun verilməsi olub. İnkişaf etmiş ölkələr üzrə 2020-ci il üçün proqnoz 0,1% bəndi azaldılıb – 1,6%-dək, 2021-ci ildə də 1,6%-lik artım planlaşdırılmışdı. Bundan başqa, BVF Çinin 2020-ci il üzrə iqtisadi artım proqnozunu 0,2 faiz bəndi, 6%-dək artırıb, 2021-ci il üzrə isə 0,1 faiz bəndi, 5,8%-dək azalmışdı. ABŞ üzrə 2020-ci il üçün iqtisadi artım proqnozu 0,1 faiz bəndi azaldılaraq 2%-ə endirilmiş, 2021-ci il üçün isə proqnoz 1,7% səviyyəsində saxlanılmışdı. Avrozonada 2020-ci ildə iqtisadi artım üzrə proqnoz 0,1 faiz bəndi azaldılaraq 1,3%-ə endirilmiş, 2022-ci ildə isə müsbət proqnoz verilmişdir – 1,4% [9].

Qeyd edək ki, 2019-cu ilin oktyabr ayında BVF qlobal iqtisadi artım proqnozunu 2019-cu il üçün 3%-dək, 2020-ci il üçün isə 3,4%-dək azaltmışdı. BVF-nin məlumatına görə, qlobal artım 2021-ci ildə 5,4% olaraq qiymətləndirilirdi [9]. Bu artım sürəti əvvəlki təxminlərdən 6 bənd aşağıdır. Birləşmiş Millətlər Təşkilatının İnkişaf və Ticarət Konfransının (BMTİTK) Covid-19-un dünya ticarət statistikasını necə dəyişdirdiyinə dair dərc etdiyi hesabata görə, qlobal ticarət dəyərləri 2020-ci ilin birinci rübündə 3% azaldı və bu azalmanın 2020-ci ildə daha dərinləşməsi müşahidə edildi. Hətta 30%-ə yaxın olduğu hiss olundu. Əmtəə qiymətləri isə neft qiymətlərinin ani düşməsi səbəbindən rekord 20% ucuzlaşdı. Amma hazırkı dövrdə pandemiyanın tədricən zəifləməsi, iqtisadi artım tempinin bərpa olunması neftin qiymətində də yüksəlişə səbəb olmuşdur. Misal olaraq Azərilayt markalı neft təxminən 80-90 dollar arası dəyişir.

BVF-in Azərbaycanla bağlı “Qlobal iqtisadi mənzərə” adlı hesabatına əsasən Azərbaycanda iqtisadi artımın 2021-ci ildə 2,3 faiz qiymətləndirib, 2022-ci ildə isə 1,7 faiz olacağını proqnozlaşdırıb [9]. BVF-nin müvafiq proqnozlarına əsasən işsizlik səviyyəsi də növbəti iki ildə 6 faizdən aşağı olacaqdır. Eyni zamanda qurum cari əməliyyatlar balansı üzrə proqnozları da pozitivə doğru yeniləmişdir. Belə ki, cari əməliyyatlar balansının defisitinin ÜDM-ə nisbəti 2021 və 2022-ci illərdə müvafiq olaraq 3,6 və 4,4 faiz olaraq proyeksiyalaşdırılırdısa, yeni hesabatda müvafiq defisit profisitlə əvəz olunmaqla 1,1 və 0,5 faiz ətrafında qiymətləndirilmişdi.

Dünyadakı sektor baxımından, Covid-19-dan təsirlənən əsas sektorlar kənd təsərrüfatı və neft məhsulları idi. İkinci sektor emal sənayesidir. Üçüncü sektorlar təhsil, maliyyə sənayesi, səhiyyə və əczaçılıq sənayesi, qonaqpərvərlik, turizm və aviasiya, daşınmaz əmlak və mənzil, idman sənayesi, informasiya texnologiyaları, media və tədqiqat və inkişaf, qida sənayesidir [11]. İstehsal sektorunun böyük ehtimalla üçqat zərbə alacağı bildirilir [10, s. 45]. Xəstəlik dünyanın istehsal mərkəzlərinə (Şərqi Asiya) yönəlməsi və digər sənaye nəhəngləri, ABŞ və Almaniyada sürətlə yayılmasıbirbaşa tədarükün kəsilməsi istehsalın qarşısını almaqdadır. Təchizat zənciri daha az təsirlənən ölkələrdəki istehsal sektorlarına zərər verməkdədir və ölkələrin bir-birlərindən ehtiyac duyduqları idxal olunan sənaye gəlirlərini əldə etmələrini daha da çətinləşdirməklə və daha da bahalaşdırdı, beləliklə birbaşa tədarük şoklarını artmağa doğru

getdi. Ümumi tələbin makroiqtisadi azalması (yəni tənəzzüllər) səbəbindən tələb fasilələri oldu və istehlakçıların satın almada gecikmələri firmalar tərəfindən investisiyaların gecikməsinə səbəb yaratdı [10, s. 45].

Covid-19-un Türkiyə iqtisadiyyatına təsirini nəzərə alaraq, pandemiyadan əvvəl yaşadığı valyuta böhranının təsirin böyüklüyü baxımından əhəmiyyətli olduğunu qeyd etmək lazımdır. Türkiyə iqtisadiyyatının struktur problemlərindən biri, "borc artımına əsaslanan və inşaat yönümlü xarici kapital axınlarından asılı olan bir böyümə modelinin" olmasıdır [12, s. 199]. Bu model, qlobal likvidlik səviyyəsindən asılı olaraq monetar genişlənmə və daralma proseslərindən təsirlənir və iqtisadiyyatın kövrək bir quruluşa sahib olmasına səbəb olur. Əslində, Federal Ehtiyat Bankının (FED) 2013-cü ildən etibarən kəmiyyət genişləndirmə proqramına son verəcəyini açıqlaması ilə Türkiyəyə kapital axınında bir yavaşlama meydana gəldi [12, s. 199]. Bu vəziyyət, Türkiyə Cümhuriyyəti Mərkəzi Bankının (TCMB) faiz dərəcələrini artırması ilə daxili faiz və borc artımına əsaslanan böyümə modeli üçün ciddi problemlər yaratdı. İqtisadiyyatdakı bu kövrək quruluş 2018-ci ildə daha da aydınlaşdı və birdən-birə pul axınları və spekulyativ dalğalanmalar səbəbindən TL-nin sürətlə ucuzlaşması ilə nəticələnən valyuta böhranı ilə nəticələndi. Bu mənfi vəziyyət, Türkiyədəki investisiyaların beynəlxalq maliyyə kapitalı üçün getdikcə daha riskli olduğu qənaətinə gətirib çıxardı [12, s. 210-211]. Digər tərəfdən, ölkədə 15 İyul çevriliş cəhdinin yaratdığı iqtisadiyyata təzyiqi, Yeni Prezident Hökuməti Sisteminə keçid və qurumların bu yeni sistemə inteqrasiyasını nəzərə almaq lazımdır. Bu səbəbdən Türkiyə, 2018-ci il valyuta böhranının təsirləri ilə mübarizə apardığı bir konyunkturada pandemiya prosesinə girdi.

İqtisadiyyatdakı makro göstəricilər pandemiyanın təsirini görmək baxımından əhəmiyyətli bir qaynaqdır. Strategiya və Büdcə Başçılığının dərc etdiyi məlumatlara əsasən, Türkiyə iqtisadiyyatının artım rəqəmlərinin 2018-ci ilin son rübündən etibarən kiçilməyə başladığı və 2019-cu ilin son rübündə artan bir tendensiyaya girdiyi və pandemiya prosesinin yaşandığı 2020-ci ilin ikinci rübündə Türkiyə iqtisadiyyatı -9,9% azaldı.

İkinci rübdə sənaye sektoru 16,5%, xidmətlər sektoru (inşaat daxil olmaqla) 10,6%azaldığı halda, aqrar sektor 4%artmışdır. 2020-ci ilin ikinci rübündə şəxsi istehlak 8,5%, ictimai istehlak isə 0,8% azaldı. Beləliklə, ümumi istehlak 7%, ümumi əsas kapital qoyuluşları eyni dövrdə 6,1% azalıb [16].

Düzdür 2021-ci ilin ikinci yarım ilindən etibarən vəziyyətin tədricən müsbətə doğru dəyişməsi nikbin proqnozlar verməyə əsas verir. Türkiyədə də vaksinasiya prosesinin sürətlə həyta keçirilməsi öz müsbət nəticəsini vermişdir. Yoluxanların sayında kəskin azalma hökuməti məhduddiyyətlərin tədricən aradan qaldırmağa sövq etmişdir. Ölkələrarası sərhədlərin açılmağa başlaması, hava nəqliyyatının fəaliyyəti turizm sektorunun kövrək addımlarla da olsa inkişafına təsir etməkdədir.

Türkiyə Statistika Təşkilatının (TST) məlumatlarına görə, işsizlik rəqəmlərinə baxıldıqda, 2018-ci ildə 11% olan işsizlik nisbətinin 2019 -cu ildə 13.6% -ə, 2020 -ci ildə isə ilk aylıq ortalama olaraq 13.3% -ə düşdüyü görüldü. Covid-19-un ən əhəmiyyətli təsirlərindən

biri xarici ticarətdir. Makro göstəricilərdəki dəyişiklik özünü məişət istehlak xərclərində (tələb) və emal sənayesi potensialından istifadə nisbətlərində (təklif) göstərdi. Pandemiya dövründə Türkiyənin İqtisadi Siyasət Araşdırma Vəqfi (TİSAV) tərəfindən mütəmadi olaraq paylaşılan "Covid-19-un İstehlak Xərclərinə Təsiri" hesabatına görə, "Avqust ayında 87,8 milyard TL məbləğində cəmi 503 milyon əməliyyat edildiyini qeyd edirdi. İstehsal sənayesinin gücünün istifadəsi və böyümənin gedişatı ilə bağlı əhəmiyyətli bir məlumat olan elektrik istehlakına nəzər saldıqda, TEPAV -ın dərc etdiyi hesabata görə, Türkiyədə elektrik istehlakı bir əvvəlki ilə nisbətən 22% azalıb [13].

Dünyada olduğu kimi Azərbaycanda da Covid 19-dan ən çox təsirlənən sektorlar: təhsil, turizm, sosial sahələr, restoran-toy biznesi, müəyyən istehsal sahələri olmuşdur. Mədəniyyət və Turizm Nazirliyinin məlumatına görə, 2020-ci ilin fevral ayından etibarən turizm gəlirləri kəskin azalmış, istər daxili turizm, istərsə də xarici turizm ciddi problemlərlə üzləşmişdir. 2020-ci ilin aprel ayından etibarən hava və quru sərhədinin bu sahələr üçün bağlanılması xarici turistlərin sayını demək olar ən minimum səviyyəyə endirmişdir. Bu baxımdan şübhəsiz ki, turizm gəlirlərində 2020-ci ilin iyul ayından əvvəlki dövrlə müqayisədə kəskin azalma müşahidə olundu. Düzdür 2021-ci ilin may ayından etibarən pandemiyanın zəifləməsi ilə bağlı bəzi güzəştlərin olması bu sektorda da canlanmaya səbəb oldu. Əvvəlki dinamika tam olaraq bərpa olunmasa da amma hərkətin olması yaxın illərdə müsbət proqnozlara ümid yaradır.

## 3. Dünya ölkələrində pandemiya zamanı alınan iqtisadi tədbirlər

Çinin Uhan şəhərində başlayan və domino effekti yaradaraq bütün dünyaya təsir edən epidemiya, qlobal iqtisadiyyata ciddi zərər vermiş oldu və proses zəif formada olsa da hələ də davam etməkdədir. Pandemiya prosesinin mənfi təsiri kənd təsərrüfatı, sənaye, xidmət, maliyyə, təhsil, səhiyyə, turizm, idman və medianın demək olar ki, bütün sahələrində hiss olunur. Bütün bu təsirləri sağlamlıq, iqtisadiyyat və sosial olaraq üç qrupda toplamaq mümkündür. Sağlamlıq sahəsindəki təsirlər, diaqnoz, karantin və müalicədəki çətinliklər, şübhəli və ya təsdiqlənmiş halların təqibi və təqibində qeyri-kafiliklər, səhiyyə sistemindəki mövcud problemlər (yataq tutumu, tibbi avadanlıqlar, xəstəxanaların sayı və həkimlər), pandemiya ilə həddindən artıq yüklənmə və sistemin dayanması, təqib edilməməsi, dərmanlar və s. təchizat zəncirinin pozulması və tibb işçilərinin lazımi avadanlıq olmadan işləmə riski və s. [15]. Sosial sahədə gündəlik həyat fəaliyyətlərinin demək olar ki, tamamilə məhdudlaşdırılmasından qaynaqlanan stress və təcrid (evdə sıxışan), otellər, restoranlar, bərbərxanalar, kafelər, teatrlar, kinoteatrlar, ticarət mərkəzləri, idman zalları, hovuzlar və s. xidmət sektorunda bir çox müəssisənin bağlanması ilə yaşanan işsizlik və vətəndaşların bu xidmətlərə daxil olmasında yaşadıqları problemlər, yaşlılar, uşaqlar və s. qoruma və qayğıya ehtiyacı olan insanların ehtiyaclarının pozulması (qulluq xidməti, təhsil və sağlamlıq kimi) və s. təsirlər meydana gəldi. İqtisadiyyat sahəsindəki təsirləri əsas mal istehsalının yavaşlaması,

məhsul tədarük zəncirinin pisləşməsi, milli və beynəlxalq ticarət itkiləri, likvidlik problemi və gəlir itkiləri kimi sıralamaq olar [6, s. 78-79].

Bu təsirlər pandemiya prosesini yaşayan bütün ölkələrdə görüldü. Əslində bütün bu mənfi təsirləri azaltmaq və ya ortadan qaldırmaq üçün ölkələr qoruyucu-qabaqlayıcı siyasətlərdən (məktəblərin və iş yerlərinin bağlanması, ictimai tədbirlərin qadağan edilməsi, ictimai nəqliyyatın məhdudlaşdırılması, komendant saatı, evdə qalma qaydaları, sərhədlərin bağlanması, daxili və beynəlxalq səyahət məhdudiyyətləri), sağlamlıq sisteminin gücləndirilməsi siyasəti (ictimaiyyətin məlumatlandırılması, testlərin sayının artırılması və yayılması, səhiyyə sisteminə təcili investisiya qoyulması, peyvənd işlərinin təşviqi) və iqtisadi siyasət ( birbaşa gəlir dəstəyi, ev təsərrüfatlarına aşağı faizli kreditlər, vergilər, təşviqlər və s.) maliyyə tədbirləri, (beynəlxalq maliyyə dəstəyi və s.) üç oxlu mübarizəyə başladı [1; 5; 7].

Ölkələr Covid-19-un iqtisadi idarəçiliyində fərqli prioritetlər və məbləğlərlə maliyyə müdaxiləsi həyata keçirsələr də, son məqsədlər işçiləri qorumaq üçün qaydalar, işəgötürənlər üçün maliyyə tədbirləri, ixracata müdaxilələr və aşağı gəlirli qruplara köçürmələr irəli sürmək idi [3; 2; 11]. Pandemiyanın qlobal iqtisadiyyata təsiri ilə bağlı artan narahatlıqlara ilk cavab G7 ölkələrinin maliyyə nazirləri və mərkəzi banklarından gəldi. 3 mart 2020-ci ildə nəşr olunan bəyannamədə, iqtisadi artımı təmin etmək üçün bütün lazımi tədbirlərin görüləcəyi bildirildi [3,s. 46]. İlk müdaxilənin Covid-19 ilə mübarizədə sağlamlıq sistemlərini gücləndirmək üçün maliyyə dəstəyi olacağı da bildirildi. Əslində, bu açıqlamalardan sonra G7 ölkələrinin əksər mərkəzi bankları, xüsusən də FED (0,5%), ehtiyat tələblərinin azaldılması kimi bir sıra tədbirlər vasitəsilə maliyyə sistemlərində likvidliyi artırmaq üçün hərəkətə keçdi. Faiz dərəcələrinin aşağı salınması, banklar və müəssisələr üçün müvəqqəti kredit imkanlarının yaradılması və kredit şərtlərinin yüngülləşdirilməsi üçün addımlar atıldı [3, s. 47]. Bundan əlavə, milli hökumətlər iqtisadi aktivliyi davam etdirmək üçün müxtəlif maliyyə tədbirləri gördülər. Ümumiyyətlə, bu tədbirlərə ev təsərrüfatlarına birbaşa ödənişlərin edilməsi, vergi ödənişlərinin müvəqqəti olaraq təxirə salınması, işsizlik sığortasının uzadılması və müəssisələrə zəmanətlərin və kreditlərin artırılması daxil idi [11; 3].

İlk hadisənin Çinin Uhan şəhərində ortaya çıxması ilə Çin hökuməti, Uhanda bir sətəlcəm pandemiyasının 2020-ci ilin yanvar ayında yeni bir korona virusundan qaynaqlandığını dünya ictimaiyyəti ilə paylaşdı və sonra çox sərt tədbirlər görməyə başladı. Bu tədbirlərə Hubei əyalətinin bağlanması, milli səviyyədə geniş hərəkət məhdudiyyətləri, sosial uzaqlaşma və geri dönən miqrant işçilər üçün 14 günlük karantin müddəti daxildir. Alınan tədbirlər nəticəsində ilk rübdə Çin iqtisadiyyatı 6,8% azaldı. Bunun üzərinə Çin hökuməti təxminən 4.6 trilyon Renminbi (RMB) (ÜDM -in 4.5%) məbləğində maliyyə tədbirləri elan etdi [9].

Vəsatət və ölüm sayına görə uzun müddət Çindən sonra birinci yeri tutan Amerika Birləşmiş Ştatları, maliyyə tədbirləri baxımından da diqqət çəkən ölkələrdən biridir. Yalnız epidemiyanın əvvəlində, 5 mart 2020-ci ildə Amerika Konqresi, Covid-19 ilə mübarizə səylərini dəstəkləmək üçün təcili yardım fonduna 8.3 milyard dollar ayırmağı təklif edən

qanunu qəbul etdi [3, s. 53]. Sonra, 18 martda Trump, ödənişli xəstəlik məzuniyyəti və pulsuz Covid-19 testi verən Müdaxilə Qanunu imzaladı. Trump administrasiyası tərəfindən Covid-19 ilə mübarizə çərçivəsində tətbiq edilən maliyyə tədbirləri və maliyyə ölçüləri ilə bağlı qanunlar aşağıdakı kimi sıralana bilər: 1) 483 milyard ABŞ dolları məbləğində "Ödəniş çekinin qorunması proqramı və sağlamlığın təkmilləşdirilməsi Qanunu". 2) Təxminən 2.3 trilyon ABŞ dolları məbləğində (ÜDM -in təxminən 11% -i) olan "Koronavirusdan yardım və iqtisadi təhlükəsizlik Qanunu" (KYİT Qanunu). 3) 8.3 milyard ABŞ dolları "Koronavirusa hazırlıq və müdaxilə əlavə ödəniş Qanunu" və 192 milyard ABŞ dolları "Ailənin ilk koronavirusa müdaxilə Qanunu".

Pandemiyanın ən sıx yaşadığı, səhiyyə sistemlərində yaşanan problemlərlə və buna görə də ölüm nisbətlərinin yüksək olduğu bir bölgə İtaliya, İspaniya, Fransa və Almaniyanın başçılıq etdiyi Avropa oldu. Birliyin pandemiyaya qarşı iqtisadi mübarizədə alətləri milli maliyyə siyasəti və Avropa Mərkəzi Bankının (AMB) siyasəti olmuşdur. Covid-19 ilk dəfə İtaliyaya və Avropaya çox ağır təsir etdi. Mayın 4-dək ölkədə istehsal demək olar ki, dayandı və komendant saatı və iş yerlərinin bağlanması kimi bütün ölkədə karantin prosesləri tətbiq edildi. Bir çox fəaliyyət qadağan edildi. May ayından sonra hadisələrin sayının azalması ilə bir çox sektor (pərakəndə satış mağazaları, restoranlar, kafelər, bərbərlər, idman qurğuları, kino və teatr) tədricən yenidən açıldı. Bununla birlikdə, avqustun əvvəlində başlayan təsdiqlənmiş halların artması ilə qadağalar yenidən gündəmə gəlməyə başladı. Məsələn, ictimai yerlərdə (həm qapalı, həm də açıq havada) maska taxmağın məcburi olması. Profilaktika və karantin qaydalarına əməl etməyənlərin cərimələri artırıldı. Bənzər bir prosesin Fransa və İspaniyada da yaşandığını söyləmək olar. Fransada ilk təsdiqlənmiş Covid-19 hadisəsi 24 yanvar 2020-ci ilə təsadüf etdi. Fransada aprelin ortalarından etibarən sabit bir enişdən sonra, epidemiya avqust ayında yenidən yüksəlməyə başladı. İspaniyada aşkar edilən ilk hadisənin tarixi 25 fevral 2020-ci ildir. Pandemiyadan çox təsirlənən İspaniyada, hadisələr apreldən iyulun ortalarına qədər davamlı bir enişdən sonra yenidən artmağa başladı. Davaların artması, İtaliyada olduğu kimi hər iki ölkədə də ciddi tədbirlərin görülməsinə səbəb oldu [9].

Bu ölkələrdə profilaktik tədbirlərə əlavə olaraq, pandemiyanın iqtisadi təsirini yüngülləşdirmək üçün işgüzar dairələrə, işçilərə, səhiyyə işçilərinə, işsizlərə, ehtiyacı olan və ya pandemiyadan mənfi təsirlənən imkansız qruplara bir çox yardımlar göstərilir. Məsələn, Amerikada pandemiya ilə mübarizə üçün alınan iqtisadi tədbirlərin ən əhatəsi olan KYİT Qanunu ilə 2 trilyon dollarlıq bir virus yardım paketi gətirildi. Qanuna görə, 17 yaşına çatmamış uşaqlara, aztəminatlı vətəndaşlara, işsizlərə, pandemiya dövründə işsiz qalanlara, özünüməşğul işçilərə, kiçik müəssisələrə, fermerlərə və kredit borcu olanlara əhəmiyyətli məbləğ köçürüldü. Amerika, ən çox xəstəliyə yoluxmuş ölkə olaraq iqtisadi tədbirlərə ən çox pul xərcləyən ölkələrdən biridir.

Avropa ölkələri arasında Almaniya və İspaniya iqtisadi tədbirlər baxımından diqqəti cəlb edir. Həm Almaniyanın, həm də İspaniyanın Covid-19 ilə mübarizədə gördüyü iqtisadi

tədbirlər daha əhatəlidir. Məsələn, Almaniya Hökumətinin maliyyə tədbirlərinə aşağıdakılar daxildir: a) sağlamlıq avadanlıqları, xəstəxana tutumu və Ar-Ge (vaksin) xərcləri, b) işəgötürənlərin və işçilərin gəlirlərini qorumaq üçün iş subsidiyasına daha qısa müddətdə daxil olmaq, aşağı gəlirli və öz-özünə işləyənlər Mütəxəssislər üçün əsas gəlir dəstəyinə daha asan çıxış, c) Covid-19 pandemiyasından ciddi şəkildə təsirlənən kiçik biznes sahiblərinə və özünüməşğul insanlara 50 milyard avro qrant, üstəlik faizsiz vergi təxirə salınması, 2 milyard avro yeni başlayanlar üçün, d) müvəqqəti olaraq işsizlik sığortası müddəti və valideyn məzuniyyəti müavinətləri. İspaniya hökuməti əsas tədbirlər üçün 39 milyard avro ayırdı. Hökumət tərəfindən həyata keçirilən maliyyə tədbirlərinin əksəriyyəti aşağı gəlirli qruplara, işsizlərə və məşğulluq bazarlarına köçürmələrdən ibarətdir.

Azərbaycanda hökümət 3 milyard manatdan çox məbləğdə Covid-19 ilə mübarizə və onun fəsadlarının aradan qaldırılması, iqtisadi sahədə durğunların qarşısının alınması və cəmiyyətin maddi rifahının yaxşılaşdırılması istiqamətində tədbirlər paketini təsdiqlədi. Əsasən əhalinin sağlamlığının təmin edilməsitədbirləri, xəstələnlərin sağalması üçün tibbi ləvazimatların, dərmanların alınması xərcləri qarşılandı. Cəmiyyətin sosial baxımdan aztəminatlı ailələrinə verilən yardımlar, pandemiyadan ziyan çəkmiş kiçik və orta sahibkarlara verilən pul yardımları və bəzi güşəztlər göstərildi. Dövlət sektorunda çalışanların işə cəlb olunmamasına baxmayaraq əmək haqlarının verilməsində hər hansı problem yaşanmadı.

**Nəticə.** Dünya tarixi bir çox pandemiyanın şahidi olsa da, tibb elmləri və texnologiyasının XXI əsrdə bu qədər sürətlə inkişaf etməsinə rəğmən Covid-19 virusunun müalicəsində acizlik göstərməsi təzadlı vəziyyəti meydana gətirməklə, həm də ciddi mübahisələrə yol açır. Covid-19 pandemiyasının bütün dünyaya iqtisadi təsirini və pandemiya ilə mübarizədə iqtisadi idarəetmə proseslərini araşdırılan bu elmi işin aktuallarını nəzərə alaraq sonrakı dövr üçün daha geniş formada davam etdirilməsi vacibdir. Əslində, pandemiyadan sonra bir çox ölkələrdə işsizlikdən sonra yoxsulluq, Covid-19-un sosial-iqtisadi təsiri və qaçqınların vəziyyəti kimi problemlər olacağı heç kimdə şübhə doğurmur. Nəzərə alsaq ki, Birləşmiş Millətlər Təşkilatı Covid-19-un yaratdığı iqtisadi təsirlərin dünyada 40-50 milyon insanı həddindən artıq yoxsulluğa sürükləyəcəyini bildirməsi də təsadüfi deyildi. Bununla belə pandemiya sonrası müasir dünya düzəninin formalaşması, yeni yanaşmaların və çağırışların yaranacağı artıq hiss olunmaqdadır.

Dünyada həyata keçirilən iqtisadi tədbirləri araşdırıldıqda məlum olur ki, pandemiyadan sonra ortaya çıxacaq yoxsulluqla əlaqədar hərtərəfli bir maliyyə tədbirinin irəli sürülmədiyi görülür. Buna səbəb hər bir dövlətin qlobal maraqdan, birgə vahid konsepsiyadan çıxış etmədiyi məlum olur. Üzdə görünən mənzərənin gerçəkliklə ziddiyyət təşkil etməsi nəticə etibarilə belə bir ciddi problemin yaranmasına səbəb oldu. Geosiyasi güclərin daha çox milli dövlət marağından çıxış etmələri, öz vətəndaşlarının sağlamlıqlarını digərlərindən daha yüksək tutmaları beynəlxalq hüquqa ikili yanaşmanın bariz nümunəsi kimi özünü göstərir.

Burdan belə nəticəyə gəlmək olur ki, pandemiya prosesinin bütün dünya dövlətlərinə təsiri təxminən bərabər xarakter almış olsa da, postpandemiya dövründə fəsadlar dövlətlərə

müvafiq olaraq fərqlənəcəyi şübhəsizdir. Deməli daha zəif, iqtisadi cəhətdən geri olan dövlətlərdə ciddi sosial-iqtisadi problemlərin inkişaf etmiş dövlətlərlə müqayisədə daha çox olacağı qaçılmazdır. Xüsusilə də, maliyyə resursları zəif olan dövlətlərin və onların vətəndaşlarının banklara borclanması prosesinin sürətlənəcəyini, işsizliyin və sosial fəlakətlərin dərinləşəcəyini proqnozlaşdırmaq olar. İqtisadi tədbirlərə daxil edilməyən başqa bir məsələ pandemiyadan əvvəl də dünya tərəfindən göz ardı edilmiş qaçqınlar və ya risk altında olan köçkünlərdir. Bununla birlikdə, risk altında olan köçkünlərin 1/3 hissəsi Covid-19-un sosial-iqtisadi təsirləri üçün ən çox risk altında olan 10 ölkədə yaşayır. Bu o deməkdir ki, pandemiya tamamilə yox olmayacaq və mutasiyaya uğrasa, müəyyən dövrlərdə fərqli şəkildə dünya gündəminə qayıdacaq. Əslində, Covid-19-un hər kəsə heç bir sinif fərqi olmadan ötürüldüyü bildirilsə də, COVID-19 hadisələrinin əksəriyyəti gecəqondu tipli qəsəbələrdə və qaçqın düşərgələrində baş verir və profilaktik tədbirlərin olmaması səbəbindən sürətlə yayılır. Yetərsiz qidalanma, gigiyena olmaması, təmiz içməli su problemi, səhiyyə xidmətlərinə əlçatmazlıq və ya bu xidmətlərdən məhrum olmaq burada yaşayan insanları epidemiyaya qarşı müdafiəsiz qoyur.

**Ədəbiyyat**

1. Anderson R.M., Heesterbeek, H., Klinkenberg, D. (2020), Howwill Country-Based Mitigation Measures Influence the Course of the COVID-19 Epidemic? The Lancet, 395 (10228), pp. 931-934.
2. Baldwin R., Weder di Mauro B. (2020), Economics in the Time of COVID-19, London: CEPRPress.
3. CRS Report [Electronic resource] URL https://www.everycrsreport.com/files/2020-09-04_R46270_bf85dd38bb4cf565d90c71406951ff9274991796.pdf,2020,(30.09.2020).
4. Fernandes, N. Economic Effects of Coronavirus Outbreak (COVID-19) on TheWorldEconomy [Electronic resource]. - 2020, URL https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=3557504, (30.09.2021)
5. Gupta S. et al. (2020), Tracking publicand private responseto the Covid-19. Epidemic: Evidence.
6. Haleem A., Javaid M., Vaishya, R. (2020), Effects of COVID 19 Pandemic in DailyLife Current Medicine Research Practice [Electronic resource], https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC7147210/, (28.09.2021).
7. Variationin Government Responsesto COVID-19, Blavatnik School of Government Working Paper, 31 T. Hale [and oth.], 2020, URL https://www.bsg.ox.ac.uk/sites/default/files/2020-05/BSG-WP-2020-032-v6.0.pdf, (25.09.2021).
8. Harvey D. (2006), Postmodernliğin Durumu, (Çev.) Savran S., Metis Yayınları, İstanbul.
9. IMF (2020), [Electronic resource], URL https://www.imf.org/en/Topics/imf-and-

covid19/Policy-Responses-to-COVID-19#T, (30.09.2021).

10. McKibbin J.W., Fernando, R. (2020), The Economic Impact of COVID-19, // Economics in the Time of COVID-19, (Ed.) R.Baldwin, & B. Mauro Di Weder, London: CEPRPress, pp. 45-53.
11. Nicola M. et al., (2020), The Socioeconomic Implications of the Coronavirus Pandemic (COVID-19). A Review. International Journal of Surgery, № 78, pp.185-193.
12. Orhangazi Ö. (2020), Türkiye Ekonomisinin Yapısı Sorunlar Kırılganlıklar ve Kriz Dinamikleri, Ankara: İmge Kitabevi.
13. TEPAV Covid19'un Ekonomiye Etkisinin Elektrik Tüketimiile Takibi, URL https://www.tepav.org.tr/upload/files/15867587413.COVID_19un_Ekonomiye
14. Voyvoda E., Yeldan E. Salgın, Türkiye Ekonomisi ve Gerçekçi Bir Kamu Politikası Önerisi, URL https://sarkac.org/2020/06/salgin-turkiye-ekonomisi-ve-gercekci-bir-kamu-politikasi-onerisi/ (30.09.2021).
15. World Health Organization Considerationsinad justing public health and social measures in the context of COVID-19, 2020, URL https://www.eryigit.com.tr/wp-content/uploads/WHO-2019-nCoV-Adjusting_PH_measures-Workplaces-2020.1-eng.pdf (30.09.2021).